# Beş illik zəfər tarixi və vətənpərvərlik

Torpaq bəşəriyyətin bütün canlılarının varlığının özətidir, əzəlidir. Torpaq Yer üzünün həm varlıq timsalı,məfhumu, həm də reallığıdır. Torpaq həyatdır. Həyat isə yaşam deməkdir. Yaşam isə reallıq, həqiqətdir. İnsan bəşəriyyətin şüurlu varlığıdır. Hər bir insan dünyaya göz açdığı toplumu - ailəsini və məkanını sevər. Ta körpəlikdən ata-babalarının məskən saldığı torpaq ona, onun yaşamasına tən olar. Şüuru düşüncələrlə də insan öz məkanını sevər, əzizləri üçün, gələcək nəsilləri üçün onu qoruyar. Bax, onun yaşamasına, həyatına tən olan o məkandan başlanar Vətən. O məkanda onun isti ocağı olar, həyat tərzi keçər və bir nəslin başlanğıcı yer alar. O nəsil şəcərə kimi əhatə dairəsini genişləndirdikcə həyat da davamlı şəkildə mövcud olar. Ona aid olan torpağı hər bir insan övladı qoruyar. Şeytani hisslərin mənsub olduğu insanlar başqalarının xoş, firavan həyatına qibtə edər və ona aid olmayanlara göz dikər. Sərvət əldə etmək və daha güclü, zəngin olmaq üçün “ölüm-dirim” müharibələri edər, qəsbkarlığa, yağmalığa başlayar. Müharibə var-dövlət, sərvət toplamaq və qarətçiliklə güclü olmaq və insanları güclü olduqdan sonra itaətə, məhkumluğa məcbur etmək deməkdir. İnsanlığa zidd olan bu düşüncə müharibə etmək iddiasında olan hər kəsin əqidə və xislətini amansız düşüncə və iddialarla çulğalayır və onlar qəddarlaşır, faşist və nankor bir topluma çevrilir. Ancaq öz həyatı və aid olduğu məkanı qorumaq üçün mübarizəyə qalxan insanlar qanı, canı “bahasına” müdafiəyə qalxar. Torpaqlarını, ailəsini qorumaq üçün yaşam mücadiləsi edər. Bax, o zaman o torpaqlar vətənləşər, ailəsi və yaşadığı əhatə dairəsindəki insanlar xalq olar və Vətən uğrunda müharibə başlanar. İşğal altında qalan hər qarış torpaq üçün vətənpərvər ruhlu övladlar son damla qanına kimi vuruşar, “ölümün” gözünə dik baxarlar. Demək, torpağı Vətən edən uğrunda tökülən qandır, ölümün gözünə dik baxan şəhadət yolçuları isə Vətən qayalarında “mamır olub bitənlər”dir.

Azərbaycan torpağı öz əsrarəngiz gözəlliyi və zəngin sərvəti ilə tarix boyu istilaçıların hücum və talanlarına məruz qalmışlar. Bütöv Azərbaycan tarix boyu gücünə güc çatmadığı üçün, qüvvət və qüdrətinə görə “parçalanmalara” məruz qalmışdır. Bu, tarixi xronologiyadan,salnamələrdən daha aydın görünür.

Ancaq Azərbaycan xalqı qəhrəman və cəsur bir xalqdır. İllər keçsə də yenə özünə aid olanları təkrar geri almağı bacarır və yağmalanan hər şeyi tarixi köklərə əsasən bərpa edir. Xülasə, Azərbaycan yenilməz gücə malik bir dövlət və dövlətə aid olan əhalisi




də qəhrəman bir xalqdır. Babək-Cavanşirlərdən Polad və İlqarlar və onların daha gənc davamçılarınadək döyüşən və mübarizə aparan bir qəhrəmanlıq salnaməsi xalqın tarixi sərvətidir, gözəl tituludur.

Azərbaycanın ən gözəl guşəsidir Qarabağ. Bu gözəlliyi mənimsəmək üçün qonşu Ermənistan bəzi faşist və nasist xislətli dövlətlərin köməyi ilə Azərbaycan torpaqlarının 20 faizini işğal etdi. Əlbəttə bu işğalda ölkədə baş verən daxili çəkişmələr də müstəsna deyildir. Bu 30 il əvvəl baş versə də, bir an belə vətənpərvər insanların yaddaşından silinmədi. Ölkə rəhbərliyi qan tökülmədən, siyasi yolla torpaqlarımızın azad olunması üçün daim mübarizə apardı. BMT-də qəbul olunmuş qərar və qətnamələr sənəd üzərində qaldı. Atəşkəs olmasına rəğmən (1994-cü il, may) sərhədkənarı zonalarda 30 il ərzində atəş səsləri heç kəsilmədi. Saysız-hesabsız terror hadisələri baş verdi, faciələr törədildi, qətliamlar baş verdi. Artıq səbr tükənirdi...

2020-ci ilin iyul - Tovuz hadisələri və bu hadisələr zəminində igid hərbçilərimizin xaincəsinə ölümü (Polad Həşimov, İlqar Mirzəyev və s.) erməni terrorunun maraq və məqsədi xalqın səbrini daşdırdı. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev sentyabr ayında qisas müharibəsinin başlanması ilə əlaqədar səfərbərlik elan etdi və xalqa müraciət etdi. Xalq və dövlət yekdilliklə eyni məqsədə gəldi və sentyabrın 27-də (Qisas) Vətən Müharibəsi başlandı. Bu müharibə elə bir dövrdə başlanmışdı ki, COVİD pandemiyası dünyanın bir çox ölkələrində tüğyan edirdi. Ancaq xalqımızın igid oğullarını birləşdirən güclü ordumuz hər gün, hər saat belə döyüşə-döyüşə irəlilədi. İşğal altında olan torpaqlarımız qəhrəmanlıq mübarizəsi ilə geri qaytarıldı. 20 faiz torpaqlarımızın işğal altında olan şəhər, qəsəbə və kəndlərinin çox hissəsinin yağmalanaraq xarabalığa çevrilməsi hər bir döyüşçünün düşmənə qarşı nifrətini artırır və döyüş əzmini qüvvətləndirirdi. Geri qaytarılan hər qarış torpaq igidlərimizin qanı, canı, sağlamlığı bahasına olsa da, hər kəs qisas almaq, zəfər qazanmaq niyyəti ilə vuruşurdu.

**Onlar Vətən uğrunda döyüşdülər**

Azərbaycanımızın bütün bölgələrdən olan vətənpərvər oğulları mərdliklə döyüşürdülər. Onlar arasında qədim Qəbələ torpağının övladları, Polad kimi oğulların davamçıları da var idi. Qəbələli gənclərin döyüş əzmkarlığı onların şəhadətə belə göz qırpmadan yolçu olmalarının bariz nümunəsidir.

2020-ci ildə erməni mənfurları ilə mübarizədə, döyüşlərdə Azərbaycanın Milli qəhrəmanı Polad Həşimov başda olmaqla 44 günlük döyüşlərdə və antiterror hadisələri zamanı 43 nəfər şəhidimiz olmuşdur. Onlar Qəbələ rayonunda (Polad Həşimov istisna olmaqla) dəfn olunan igidlərimizdir. Həmçinin Bakının müxtəlif rayonlarında, Göyçayda, Mingəçevirdə və s. məkanlarda da əslən qəbələli gənc igid döyüşçülərimiz dəfn olunmuşlar. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Rayonumuz üzrə 44 günlük Vətən Müharibəsində sağlamlığını itirən gənclərimiz də vardır. Onlar bu günün canlı şəhidləridir. Axı onlar arasında bədən üzvlərini “şəhid” verən gənclərimiz də vardır. Sağlamlığın qurban verən 167 nəfər hərbi qulluqçudan 83 nəfəri səfərbərliyə cəlb olunanlar, 84 nəfəri həqiqi hərbi xidmətdə olan çağırışçılar, 1 nəfər polkovnik-leytenant, 1 nəfər mayor, 4 nəfər baş leytenant, 6 nəfəri leytenant, 14 nəfəri MAXE, 4 nəfəri gizir, 2 nəfəri hərbi həkim, 135 nəfəri isə əsgərdir.

Həmçinin 2020-ci ilin iyul hadisələrində ağır yaralanan və o hadisənin canlı şahidi olan Təbriz Kərimov da qəbələlidir.

Onlar Vətən uğrunda vuruşdular. Həmişə bahar ömrünün əbədiyyətini də qazananlar oldu, gənc ömrünü ağrı-acıya nəsib edənlər də. Yüzlərlə gənc isə qazi almasa da, psixoloji travmalar alaraq həyatlarına, yaşamlarına xoş olmayanları qazandılar. Ancaq döyüşə gedənlər yalnız bir amalla döyüşdüyü üçün yaralanan igidlərimiz belə “Vətən sağ olsun!” deyirlər. Acı yaşayan şəhid valideynləri isə “Övladlarımız Vətən yolunda qəhrəmanlıq göstərdi və xalqın övladı olaraq əbədiyyətə qovuşdular. Tarixi yenidən yazdılar!” - deyirlər.

**Şəhidlər - ölümsüzlərdir**

Onları yaşatmaq hər bir vətəndaşın müqəddəs borcudur. Onların qanları ilə yuyulub mənfur düşmənin “addımları”. Onların döyüş əzmi ilə qazanılıb 30 ildən sonra Qələbə! Onların qanı ilə güclənib torpaq! Hər qarışında igidlərin qanı var; nəfəsi duyulur. Külək və yağışlar, günəş və qarlar şəhid qanını, son nəfəsini, igidlərin səsini, daxili nərəsini paylayıb bütün Vətən torpaqlarına! Ruhları göylərdə daima seyrçimiz!

Onları unutmaq olarmı? Zəfər tarixini yazan igidlərimiz bizlərin qan yaddaşında! Kaş ki, hər kəsin qan yaddaşı təmiz ola, o qan unutqanlıq xəstəliyindən uzaq ola! Unutmamalıyıq ki, şəhidlər ölməzdirlər - nə qədər ki, xatırlanırlar, yaşayırlar. Şəhidlər şəhid olub ölmürlər, yalnız unudulan zaman ölərlər! Biz isə nə qədər ki, həyatda varıq, onları yaşatmalıyıq! Həm də sabahkı nəsil üçün, gələcək nəsillər üçün yaşatmalıyıq! Ancaq necə?

**Nəsilbənəsil yaşatmaq üçün**

Zəfər tarixindən 5 il keçir. Bu tarixin 5-ci ildönümünü bu günlərdə qeyd etdik. Bu beş ildə şəhidlərin ruhlarını sevindirdikmi?! Onların əzizlərini ziyarət etmək, sağalmayan yaralarına, dərdlərinə ortaq olmaq, gənc nəslə onların qəhrəmanlıqlarını nümunə olaraq təbliğ etmək, şəhidlərin mövludunu - doğum günlərini və anım günlərini qeyd etmək, məzarlarını ziyarət etmək, ailələrinə baş çəkmək, onları

**(Ardı 8-ci səhifədə).**

# Tibb və psixologiya, qürurvericilik...

***Tibb və təhsildə birgə inteqrasiya hər bir insanın - yaşlı və gənc olmasına baxmayaraq düşüncə tərzində, psixologiyasında müsbət rol oynayır. Yaşadığımız zamana doğru və düzgün inteqrasiya olaraq həyatın nəbzini tutmaq və əsrin yeniliklərini dərk edərək qəbul etmək insanın yaşayış tərzində müstəsnadır. İnsanlığı dərk edərək yaşamaq və qorumaq üçün XXI əsrin yeni elmi sayılan “Alternativ psixologiya”nı düzgün dərk etmək və öyrənmək hər bir vətəndaşın vicdani borcu sayılır. Məhz buna görə də, qəzetimizin bu sayında dərc olunan bu yazının oxucular tərəfindən maraqla qarşılanmasına inanırıq.***

Hər bir vətəndaşımızın milli və bəşəri dəyərlərə sahib olması insanlığın qorunmasına verdiyi töhfələr Vətən üçün qürurvericidir. “Alternativ psixologiya” XXİ əsrin yeni elmi kimi canlı sistemlərin zaman və məkan daxilində davranışlarının və metamorfozalarının öyrənilməsində yeni imkanlar açır. Tibbi biologiya üzrə elmlər doktoru, professor Y.S.İbadovun tətbiq etdiyi psixoqrafiya metodu ("Metamorfoza səbəbi üzrə iş" metodu) canlı orqanizmlərin faza sistemlərinin tədqiqindən və onların həyat fəaliyyətini pozan neqativ informasiya mənşəli blokların üzə çıxarılmasından ibarət olub, insanın mənəvi-psixoloji yüksəlişinə xidmət edir. Metodun tətbiqi təbiətlə insan arasında olan qarşılıqlı təsirlərin xarakterini qiymətləndirməyə imkan verir, təkcə fiziki bədəni deyil, həm də energetik bədənləri təmizləməyə və sağlamlaşdırmağa imkan yaradır.



Oksford Akademiyası İttifaqının akademiki Yaşar Saday oğlu İbadov Azərbaycanımızı layiqincə dünyada təmsil edən "Alternativ Psixologiya" Elminin müəllifidir. Onun tibb sahəsində insanlarln tibbi-psixoloji sağlamlığının beynəlxalq səviyyədə qorunması yolunda dünya təbabətinə gətirdiyi elmi yeniliklər və töhfələr qürurvericidir. Qalib Azərbaycanı Akademiyanın, doğulduğu Qarabağın azadlığına qovuşması sevincini yaşayan Yaşar həkim növbəti uğura imza atmışdır. İngiltərənin Oksford Akademiyası İttifaqında 7 noyabr 2024-cü il tarixindən Alternativ Pisixologiya Departamenti fəaliyyətə başlayıb.

Departamentin rəhbəri dünya şöhrətli azərbaycanlı alim, Tibbi-biologiya elmləri doktoru, professor, "Alternativ pisixologiya" elminin müəllifi, Oksford Akademiyası İttifaqının akademiki, "Yay-Osido" İnnovasiya İnkişaf Mərkəzi”nin təsisçisi və direktoru Yaşar Saday oğlu İbadovdur. O həm də Beynəlxalq Nobel mükafatı İnformasiya komissiyasının eksperti olmaqla yanaşı, özü də Nobel mükafatı namizədidir.

Orijinal dəsti-xətti olan, elmi nailiyyətləri ölkəmizdə və onun hüdudlarından kənarda uğurla təqdim olunan akademik Yaşar İbadovun Alternativ psixologiya Departamentinin fəaliyyəti ilə bağlı təqdimatı zamanı, nəzəri və praktiki elmi nailiyyətləri və nanotexnologiya ilə hazırlanmış harmonizatorlarının, ixtiralarının, praktik olaraq insanların sağlamlığının qorunmasına verdiyi töhfələr və nəticələr haqqında məlumatlar iştirakçılar tərəfindən maraqla qarşılanmışdır.

Akademikin yaratdığı “Alternativ psixologiya” - XXI əsrin elmi kimi zamanın mövcud olan problemlərinin həlli istiqamətində bəşəriyyətə öz töhfəsini verə biləcək informasiya elmidir. Bu elm təbiət qanunlarına əsaslanaraq insanlığa xidmət etməkdədir. Akademik Yaşar Saday oğlu Ibadov dünyanın aparıcı ölkələrindən olan ABŞ, İngiltərə, Türkiyə, Rusiya, Avropa ölkələrinin akademiyalarının fəxri üzvü, Beynəlxalq Sistemologiya Akademiyasının, Ukrayna və Gürcüstanın Milli Elmlər Akademiyalarının həqiqi üzvü seçilmişdir.

2023-cü ildə Yaşar Saday oğlu İbadov İtaliyanın Roma şəhərində keçirilmiş konqresdə Beynəlxalq Biznes İnstitutunun Azərbaycandakı

**(Ardı 7-ci səhifədə).**